RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 133 (8726) ÇƏRŞƏNBƏ, 30 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Ermənistan dərk etməlidir ki, Azərbaycan istənilən hərbi vəzifəni icra edə bilər



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşüb.**

**AZƏRTAC xəbər verir ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı görüşdə nitq söylədi.**

## Prezident İlham Əliyevin nitqi

- Əziz hərbçilər.

Mən sizi və bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edirəm. Xahiş edirəm ki, görüşümüzün əvvəlində Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Əyləşin.

Biz şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Dəfələrlə demişdim ki, bizim şəhidlərimizin qanı yerdə qalmayacaq. Belə də oldu. İkinci Qarabağ müharibəsi Azərbaycanın tam Qələbəsi ilə nəticələndi.

İyunun 26-sı Silahlı Qüvvələr Günüdür. Bu günü biz hər il təntənə ilə qeyd edirdik. Müxtəlif tədbirlər keçirilirdi. Hər il 26 iyun tarixində hərbçilərlə görüşlər əsnasında mən deyirdim ki, gün gələcək biz öz doğma torpağımıza qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Deyirdim ki, əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, məsələni hərbi yolla həll edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etmişdir.

Hər il bu bayramı qeyd edərkən biz özümüzə söz verirdik ki, nəyin bahasına olursa-olsun doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik. Bu gün qürur hissi ilə deyə bilərəm ki, biz Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik. Bu, tarixi nailiyyətdir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır. Biz bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib, düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.

Biz bu günü yaxınlaşdırmaq üçün hazırlaşırdıq. Mən öz çıxışlarımda dəfələrlə demişdim ki, hər gün biz bu günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırdıq. Görəndə ki, dünyada beynəlxalq hüququn norma və prinsipləri kobudcasına pozulur, aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoyulmur, işğalçı Ermənistan daha da azğınlaşır, bizim torpağımızdan çıxmaq istəmir, əlbəttə, biz daha ciddi hazırlaşmalı idik. Bu hazırlıq hərtərəfli olmalı idi. Bu hazırlıq işlərinə biz vahid konsepsiya çərçivəsində yaxınlaşırdıq və bunu müəyyən edirdik.

Əlbəttə ki, Birinci Qarabağ müharibəsi bizim üçün böyük faciə idi, milli faciə idi. Eyni zamanda bu, böyük humanitar fəlakətə gətirib çıxardı. Çünki o vaxt Azərbaycan əhalisinin sayı səkkiz milyon idi, onlardan bir milyonu qaçqın və məcburi köçkün vəziyyətində yaşamalı olmuşdur. Bizim iqtisadiyyatımız demək olar ki, tamamilə dağıdılmışdı, sənaye potensialı məhv edilmişdi, iqtisadi inkişaf haqqında söhbət belə getmirdi. Bu böyük humanitar fəlakət, əlbəttə ki, ölkəmizi uçurum kənarına qoymuşdu.

Azərbaycan xalqı o ağır günlərdə müdriklik göstərərək Heydər Əliyevə üz tutdu, onu hakimiyyətə dəvət etdi. O, hakimiyyətə gələndən sonra Azərbaycanda işlər müsbət istiqamətdə getməyə başlamışdır.

*Ardı 2-ci səh.*

## Bakıda dünya brendinə məxsus hotel istifadəyə verildi



Paytaxtımızda "Courtyard by Marriott Baku" hotelinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlət başçısı və birinci xanım hoteldə yaradılan şəraitlə tanış olublar.

*Ardı 4-cü səh.*

## Hərbi quruculuq sahəsində aparılan islahatlar, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi Ali Baş Komandanın diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin "N" saylı hərbi hissəsinin yeni istifadəyə verilən hərbi şəhərciyində və Hərbi Hava Qüvvələrinin hərbi qulluqçularının ailələri üçün nəzərdə tutulmuş xidməti mənzillərdə yaradılan şəraitlə tanış olub.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev əvvəlcə "N" saylı hərbi hissənin hərbi şəhərciyində yaradılan şəraitlə tanış oldu.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

*Ardı 3-cü səh.*

## Azərbaycanla Gürcüstan arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir



İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə telefonla zəng edib.

Dövlətimizin başçısı İrakli Qaribaşvilini ad günü münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

İrakli Qaribaşvili göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili Azərbaycanla Gürcüstan arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə ediblər.

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə dair məsələlər müzakirə olunub.

*Prezidentin Mətbuat Xidməti*

## Prezident İlham Əliyevin "Twitter"dəki hesabında Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edilib




Prezident İlham Əliyevin "Twitter"dəki hesabında Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edilib.

AZƏRTAC xəbər verir ki, 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə edilən paylaşımda deyilir: "Azərbaycan torpaqlarını işğaldan azad edən müzəffər Ordumuz öz tarixi missiyasını yerinə yetirdi. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!"

## *Birinci vitse-prezident Mehriban ƏLİYEVA:* "Biz Azərbaycan Ordusuna, əsgər və zabitlərimizə hədsiz dərəcədə minnətdarıq"




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində 26 İyun - Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Bu gün biz böyük fəxarətlə Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününü qeyd edirik! Sözlə ifadə edilməsi çətin olan hisslərlə qeyd edirik. Biz Azərbaycan Ordusuna, əsgər və zabitlərimizə hədsiz dərəcədə minnətdarıq! Qəhrəmanlığınıza, şücaətinizə, cəsarətinizə və dözümlülüyünüzə görə sizə minnətdarıq! Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə görə! Vətənə sədaqətlə xidmət etmək nümunəsinə görə! Siz bizim fəxrimizsiniz! Bu əlamətdar gündə Vətən uğrunda həlak olmuş qəhrəman oğullarımızın nurlu xatirəsini ehtiramla yad edir, onların doğma və yaxınlarına səbir arzulayıram! Bütün əsgər və zabitlərimizi səmimi-qəlbdən təbrik edirəm, Uca Tanrıdan onların hər birinə möhkəm cansağlığı, sevinc, sevgi və səadət, doğma Azərbaycanımıza sülh və əmin-amanlıq bəxş etməsini diləyirəm!"

## "Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 iyul tarixli 1340 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 iyul tarixli 1340 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1282) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyun 2021-ci il*

# Ermənistan dərk etməlidir ki, Azərbaycan istənilən hərbi vəzifəni icra edə bilər

## Prezident İlham Əliyevin nitqi





*Əvvəli 1-ci səh.*

O cümlədən ordu quruculuğu sahəsində böyük islahatlar aparılmışdır. Nizami ordu quruculuğu məhz o illərdə başlamışdır.

Bir daha demək istəyirəm ki, bizim hazırlığımız hərtərəfli olmalı idi. Çünki biz, ilk növbədə, beynəlxalq müstəvidə uğur qazanmalı idik və buna nail olduq. Son illər ərzində aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər. Mən bu barədə müharibədən əvvəl dəfələrlə öz fikirlərimi bildirirdim və vətəndaşlara bu fikri çatdırmağa çalışırdım ki, bu, münaqişənin həlli üçün əsas amillərdən biridir. Çünki biz sübut etməli idik ki, beynəlxalq hüquq bizim tərəfimizdədir. Biz sübut etməli idik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Nə üçün sübut etməli idik? Çünki Ermənistan, onun xaricdəki havadarları, erməni lobbisi vəziyyətlə bağlı tam təhrif edilmiş mənzərə ortaya qoyurdular. Əfsuslar olsun ki, ermənipərəst qüvvələr, Ermənistanın xaricdəki havadarları bu saxta reallığı gerçəyə çevirməyə çalışırdılar. Bizim isə imkanlarımız çox məhdud idi. Ona görə beynəlxalq müstəvidə real həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, mötəbər beynəlxalq təşkilatların qərarlarını qəbul etdirmək bizim üçün başlıca vəzifə idi. Belə də oldu. Aparıcı beynəlxalq təşkilatlar - BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, hətta daim bizə qarşı ədalətsiz mövqe sərgiləyən Avropa Parlamenti, Avropa Şurası məcbur olub həqiqəti əks etdirən, bizim maraqlarımıza cavab verən qərar və qətnamələr qəbul etmişlər. Bu, məsələnin beynəlxalq tərəfi idi.

Eyni zamanda biz ikitərəfli formatda əlaqələrimizi gücləndirməli idik. Baxın, görün, son illər ərzində bizim dostlarımızın sayı nə qədər artıb. Bu gün Azərbaycanla daha yaxın əlaqələr qurmaq istəyən ölkələrin sayı durmadan artır və İkinci Qarabağ müharibəsi onu bir daha göstərdi. Ermənistan demək olar ki, tamamilə təcrid edilmiş vəziyyətdə idi. Bəzi ermənipərəst xarici dairələrin çıxışlarını, bəyanatlarını mən indi kənara qoyuram. Amma bizim yorulmaz fəaliyyətimiz nəticəsində bütövlükdə dünyada bu müharibə ilə bağlı artıq tam konkret və həqiqəti əks etdirən təsəvvür var idi. O cümlədən ikitərəfli formatda bir çox ölkələrlə bərabərhüquqlu və qarşılıqlı maraqlar üzərində qurduğumuz münasibətlər bizim gücümüzü artırırdı. Qardaş ölkələr - Türkiyə başda olmaqla Pakistan və Əfqanıstan, eyni zamanda İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər ölkələr müharibənin ilk saatlarından bizə öz dəstəyini göstərirdi. Bu, əyani şəkildə onu göstərir ki, bizim nə qədər güclü beynəlxalq dəstəyimiz vardır. Ermənistanı kim dəstəklədi? Biz onu yaxşı bilirik və o ölkələrin adlarını bugünkü mərasimdə çəkmək yersizdir. Ancaq o bəyanatlar nəyi dəyişdi? Heç nəyi. Çünki biz ortalığa beynəlxalq hüquq qoymuşuq, ədalət qoymuşuq, güc qoymuşuq.

Mən dəfələrlə deyirdim ki, beynəlxalq hüquq normaları işləmir. Dəfələrlə deyirdim ki, böyük dövlətlər onlara sərf edən qərarları icra edirlər, sərf etməyən qərarları icra etmirlər. Əks təqdirdə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş və erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal çıxarılmasını tələb edən qətnamələr 30 il ərzində kağız üzərində qalmazdı. Biz gördük ki, beynəlxalq hüquq normaları elə bil kiçik ölkələr, orta səviyyəli, gücü o qədər olmayan ölkələr üçün yazılıb. Böyük ölkələr buna məhəl qoymaya bilərlər və heç bir icra mexanizmi yoxdur. Əlbəttə ki, güc amili ön plana çıxmışdı. Müharibədən bir neçə il əvvəl mən bunu öz çıxışlarımda açıq deyirdim: biz güc toplamalıyıq və bu məsələ güc hesabına öz həllini tapacaq.

Bununla paralel olaraq biz iqtisadi güc toplamalı idik. Bizim hazırlıq işlərimizdə bu amil deyə bilərəm ki, aparıcı rol oynamışdır. Çünki açıq-aydın dərk edirdik ki, iqtisadi müstəqillik olmasa, biz istədiyimizə nail ola bilmərik. Çünki biz 1990-cı illərin əvvəllərini yaxşı xatırlayırıq. Bizim vəsaitimiz yox idi, xəzinə boş idi, inflyasiya min faiz səviyyəsində idi, kütləvi işsizlik və səfalət hökm sürürdü, biz iqtisadi cəhətdən asılı vəziyyətdə idik. Ona görə iqtisadi müstəqillik əldə etmək Prezident kimi mənim başlıca vəzifələrimdən biri idi və biz bunu artıq neçə ildir ki, təmin etmişik. Bu gün heç kimdən asılı deyilik. Bu gün iqtisadi göstəricilərə görə Azərbaycan dünyada aparıcı yerlərdədir. Təkcə onu demək kifayətdir ki, bu gün inkişaf etmiş ölkələrdə xarici borc o ölkələrin ümumi daxili məhsulundan daha çoxdur. Amma Azərbaycanda xarici borc ümumi daxili məhsulun heç 20 faizini təşkil etmir. Bundan əlavə, bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 6 dəfə üstələyir. Ona görə iqtisadi müstəqilliyi əldə etmək, özü də çətin geosiyasi vəziyyətdə və o qədər də böyük maliyyə resursumuz olmayan dövrdə əsl siyasi məharət və uzaqgörənlik tələb edirdi və biz buna nail olduq. Azərbaycan artıq neçə ildir ki, heç kimdən asılı deyil. Əksinə, Azərbaycan özü kömək göstərir, Azərbaycan donor ölkədir, pandemiya dövründə 30-dan çox ölkəyə kömək göstərib və bu ölkələr bizim dost ölkələrimizdir. Onlar da öz növbəsində bizi dəstəkləyirlər.

Onu da bildirməliyəm ki, müharibə dövründə bəzi ölkələr, BMT Təhlükəsizlik Şurasının üzvləri BMT Təhlükəsizlik Şurasında bizim əleyhimizə bəzi təşəbbüslər irəli sürmüşdülər və o təşəbbüslərin çox mənfi fəsadları ola bilərdi. Bu, bir daha Azərbaycana qarşı ədalətsizliyin növbəti təzahürü idi. Çünki biz öz torpağımızda vuruşurduq, öz ərazi bütövlüyümüzü bərpa edirdik. Bizim işimiz haqq işi idi. Buna baxmayaraq, ermənipərəst dairələr və ölkələr bizə qarşı tamamilə reallığı əks etdirməyən qətnamə qəbul etdirməyə çalışırdılar. Kim bizi müdafiə etdi? BMT Təhlükəsizlik Şurasında təmsil olunan Qoşulmama Hərəkatına üzv ölkələr. Onlar bizi müdafiə etdi və biz onlara minnətdarıq. Məhz onların səyi nəticəsində anti-Azərbaycan bəyanat qəbul edilmədi. Biz buna nəyin hesabına nail olmuşuq?! Əlbəttə ki, diplomatiya, siyasi əlaqələr və iqtisadi imkanlar hesabına. Biz son illər ərzində o qədər ölkəyə kömək göstərmişik və bu köməyi davam etdiririk. Əlbəttə, bu, həmin ölkələrin yaddaşında daim qalacaq. Bizə lazım olan anda biz bu dəstəyi görmüşük və bu, bizə kömək etdi. Ona görə beynəlxalq müstəvidə hazırlıqla bərabər, iqtisadi sahədə də hazırlıq gedirdi. Təbii ki, hərbi sahədə də çoxşaxəli hazırlıq gedirdi. Ordumuzun silah-sursatla təchiz edilməsi, - biz buna nail olduq, - həm də İkinci Qarabağ müharibəsi bizim imkanlarımızı bütün dünyaya göstərdi. Hətta bu gün mənə verilən məlumata görə, bəzi aparıcı Qərb mətbu orqanlarında, analitik dərgilərdə belə bir fikir ortalığa atılıb ki, hətta dünyanın aparıcı ölkəsi bizim qarşımızda olsaydı, onların da bizim qabağımızda heç bir şansı olmayacaqdı. Yəni bu, onu göstərir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Mən bunu dəfələrlə deyirdim, hərbçilərlə görüşlər əsnasında, digər tədbirlərdə deyirdim, bu gün biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Ona görə ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə apardığımız siyasətin tərkib hissəsi idi.

Bütün başqa sahələrdə hazırlıq gedirdi. Bizim texniki imkanlarımız böyük dərəcədə artmışdır və İkinci Qarabağ müharibəsində biz bunu bir daha nümayiş etdirdik. Nümayiş etdirdik ki, istənilən məsələ öz həllini tapa bilər. Biz bizdə mövcud olan texnikanı səfərbər etmişik və bu gün postmüharibə dövründə bu imkanlardan istifadə edirik.

Biz indi böyük quruculuq işlərinə start vermişik. Baxın, müharibədən cəmi 7 ay keçib, nə qədər böyük işlər görmüşük. Əgər bizdə bu hazırlıq olmasaydı, biz bunu edə bilməzdik. İndi nə qədər vəsaitin olursa-olsun, əgər sənin texniki imkanın yoxdursa, kadr potensialın yoxdursa, infrastruktur layihələri vaxtında icra edilməyibsə, bunların heç yüzdəbirini edə bilməzsən. Amma bu gün misli görünməmiş bərpa işləri aparılır. Nəyin hesabına? Məhz hazırlıq hesabına. Ona görə biz güclü dövlət yaratmışıq, mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və heç vaxt, çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır.

Bizim hazırlıq işlərinin aparılmasında əsas amil xalq-iqtidar birliyi olmuşdur. Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, bizim siyasətimizə böyük inam var. Müharibə və onun nəticələri bir daha Azərbaycan xalqını əmin etdi ki, bu inamı bizə Azərbaycan xalqı bəxş etmişdir. Çünki nəyi demişiksə, onu da etmişik. Biz "nəyi nə vaxt, necə etmək lazımdır bilirik" deyəndə məhz bunu nəzərdə tuturduq.

Biz Ermənistana şans vermişdik və danışıqlarda iştirakımız, - mən bunu əvvəllər də demişəm, - bizim ən böyük güzəştimiz ola bilərdi. Ərazi bütövlüyü məsələlərində hər hansı bir güzəştdən söhbət gedə bilməzdi və bu mövqe bəllidir. Mən bunu Azərbaycan xalqına dəfələrlə çatdırmışdım ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaq. Dağlıq Qarabağ Azərbaycan torpağıdır və biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik və bu mövqe xalq tərəfindən dəstəklənirdi. Çünki bunun başqa variantı ola bilməzdi. Danışıqlarda iştirakımız Ermənistana şans verirdi ki, bu məsələ qan tökülmədən öz həllini tapsın. Ancaq Ermənistan yəqin ki, bunu başqa cür yozurdu. Bəlkə də hesab edirdi ki, biz tərəddüd edirik. Bəlkə də hesab edirdi ki, biz öz ərazi bütövlüyümüzü bərpa etməyəcəyik. Bəlkə də hesab edirdi ki, biz bu vəziyyətlə barışa bilərik. Halbuki mən dəfələrlə demişdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, nəyin bahasına olursa-olsun öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Ermənistanın danışıqlar prosesində sərgilədiyi riyakar mövqe deyə bilərəm ki, vasitəçiləri də artıq bezdirmişdi. Çünki Ermənistan və onun rəhbərliyi beynəlxalq vasitəçiləri də aldatmağa çalışırdı. Elə şərtlər qoyurdu ki, bəri başdan hər kəs bilirdi, bu şərtlər qəbuledilməzdir. Mən demişdim, heç vaxt imkan verə bilmərik ki, bizim tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Birinci erməni dövləti bizim tarixi torpağımızda yaradılıb. Bunu indi bütün dünya bilir, tarixçilər bilir. Deyirdim ki, əgər kimsə ermənilər üçün ikinci dövlət yaratmaq istəyirsə, bunu öz ərazisində yaratsın, Azərbaycanın ərazisində yox. Bu mövqe tarixi ədalətə əsaslanırdı, biz bunu bəyan edirdik və Ermənistana şans verirdik. Ancaq onlar bu şansdan istifadə etmədilər.

2016-cı ilin Aprel döyüşləri onlara vurulan ciddi zərbə idi. Düzdür, ondan sonra onlar bəyan etməyə çalışırdılar ki, guya Aprel döyüşlərində qalib gəldilər. Mən isə o vaxt sual verirdim ki, biz onların qazdıqları səngərlərdə oturmuşuq, biz onların tutduqları yüksəklikləri ələ keçirmişik. Necə ola bilər ki, onlar qalib gəldilər? Yəni bu, növbəti yalanın təzahürü idi. Eyni zamanda Aprel döyüşlərindən sonra Ermənistanın müdafiə naziri biabırcasına vəzifəsindən qovuldu. Bir çox generallar vəzifələrindən qovuldular. Əgər onlar qalib gəlmişdilərsə, nə üçün bu insanlar öz vəzifələrindən qovulmuşdular? Biz Aprel döyüşlərindən sonra "Böyük Qayıdış"ın ilk təzahürü olan Cocuq Mərcanlı kəndini bərpa etdik. Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzərini inşa edərkən və onu açarkən mən deyirdim ki, gün gələcək, biz Şuşada bax bu Gövhər ağa məscidini bərpa edəcəyik.

Aprel döyüşləri Ermənistana dərs olmadı. Ondan iki il sonra Naxçıvan əməliyyatı nəticəsində biz böyük ərazini götürmüşdük və gücümüzü, peşəkarlığımızı bir daha göstərmişdik. O da dərs olmadı. Nəhayət, İkinci Qarabağ müharibəsi elə dərs oldu ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar. İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu tarix Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Bu, ədalətin təntənəsi idi. Bu, qürurun təntənəsi idi, milli ləyaqətin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz bütün gücümüzü səfərbər edib bu müharibədə Qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq. Düşməni elə rəzil vəziyyətə qoyduq ki, onlar bizim qabağımızda diz çökdülər, ağ bayraq qaldırdılar və məcbur olub kapitulyasiya aktına imza atdılar. Halbuki müharibə dövründə mən dəfələrlə öz çıxışlarımda və müsahibələrimdə deyirdim ki, biz dayanmağa hazırıq. Mən Prezident kimi bəyan edirəm, Ermənistan rəhbəri şəxsən bizə tarix versin, nə vaxt bizim torpaqlarımızdan erməni hərbi birləşmələri çıxır, o tarixi bizə versin və biz müharibəni dayandırırıq. Ancaq Ermənistan tərəfi yenə də bu şansı itirdi. Müharibə nəticəsində Ermənistan ordusu məhv edilib. Mən bu rəqəmləri səsləndirmişdim, siz yaxşı bilirsiniz. Siz Ermənistan ordusunu məhv etmisiniz, Ermənistan ordusu yoxdur - 336 tank məhv edilib, ya da ki, qənimət kimi götürülüb. Səkkiz S300 qurğusu məhv edilib, onların hava hücumuna qarşı digər qurğuları məhv edilib, artilleriya qurğuları. Yəni Ermənistan ordusu yoxdur. Müharibə dövründə, - artıq bu da sirr deyil, - vasitəçilər Ermənistana xəbər göndərmişdilər ki, dayanmaq lazımdır, tarix verin Azərbaycana. Ancaq onlar bundan da imtina etdilər. Biz Şuşanı işğalçılardan azad edəndən sonra məcbur olub noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdılar.

Biz güclü iradə göstərdik, cəsarət göstərdik, milli ruh nümayiş etdirdik və istədiyimizə nail olduq. Bir daha demək istəyirəm ki, İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq.

Deyə bilərəm ki, İkinci Qarabağ müharibəsi qaçılmaz idi. Bunu hər kəs bilirdi. Azərbaycan ictimaiyyəti də bilirdi, beynəlxalq vasitəçilər də bilirdi, biz də bilirdik. Sadəcə olaraq, ümidlər var idi ki, Ermənistan rəhbərliyində heç olmasa özünüqoruma instinkti özünü büruzə versin və onlar öz xoşları ilə bizim torpaqlarımızdan çıxsınlar. Əgər bu olsaydı, müharibəyə ehtiyac qalmazdı. Biz müharibə istəmirdik və bu gün də istəmirik. Hesab edirəm ki, müharibə riskini sıfıra endirmək üçün bölgəmizdə, Cənubi Qafqazda müxtəlif təşəbbüslər irəli sürülməlidir. Biz buna hazırıq. Bizə müharibə lazım deyil. Biz istədiyimizə nail olmuşuq və bizim üçün indi yeni dövr - quruculuq dövrü, torpaqlarımızın bərpası dövrü başlanmışdır.

Ancaq bu, Ermənistan üçün dərs olmalıdır. Çünki onlar, nəhayət, başa düşməlidirlər ki, bizə qarşı olan bu düşmənçilik onlara çox baha başa gəldi. Onlar nə əldə etdilər? Heç nə. Baxın, görün, 30 il ərzində müstəqil dövlət qura bilmədilər. Bu gün Ermənistan müstəqil dövlət sayıla bilməz. Onun nəyi müstəqildir, əgər xarici dairələrdən tam asılıdırsa. Xarici hərbi yardımdan tam asılıdır. Xaricdən gələn siyasi sifarişlərdən tam asılıdır. Onların 30 il vaxtı var idi, nəyə görə müstəqil ölkə qura bilmədilər? İşğala görə. Bu işğal onları bu günə saldı. Bu düşmənçilik, Azərbaycan xalqına nifrət onları bu günə saldı və ədalət özünü göstərdi. Bəzən hər birimiz müxtəlif situasiyalarda fikirləşirik ki, ədalət yoxdur, ədalət niyə bərqərar olunmur? Sadəcə olaraq, dözümlü olmaq lazımdır. Düzgün vaxtı gözləmək lazımdır və məqsədə çatmaq üçün hər gün çalışmaq lazımdır. Hər gün biz bu günü yaxınlaşdırırdıq. Qarabağ məsələsi Prezident kimi hər gün mənim gündəliyimdə birinci məsələ idi. Hər gün. Hər gün fikirləşirdim ki, bu Qələbəni əldə etmək, torpaqlarımızı azad etmək üçün əlavə nə etmək lazımdır. Biz bunu nümayiş etdirdik.

İndi Ermənistandan asılıdır. Onların davranışı və regional məsələlərə yanaşması necə olacaq. Hər halda biz Ermənistansız da bölgədə istədiyimizə nail ola bilmişik. Bütün kommunikasiyaları çəkmişik, enerji xətlərimizi çəkmişik, dəmir yollarını, bütün nəqliyyat layihələrini bizim digər qonşularımızla icra etmişik. Əgər Ermənistan bu prosesə qoşulmaq istəyirsə, hələ xahiş etməlidir öz qonşularından.

Bilməlidir ki, biz heç nəyi unutmamışıq. Biz bunu unuda bilmərik. Biz şəhidlərimizi unuda bilmərik, Xocalı qurbanlarını unuda bilmərik, dağılmış şəhərlərimizi unuda bilmərik. Dağılmış qəbirləri, təhqir edilmiş məscidləri biz necə unuda bilərik? Biz heç vaxt unutmamalıyıq. Azərbaycan xalqı bunu öz yaddaşında daim saxlamalıdır. Ermənistan rəhbərliyi, erməni siyasi-ictimai və dini xadimləri öz ideologiyasını, öz siyasətini əsassız iddialar üzərində qurmuşdular. İkinci Qarabağ müharibəsindən sonra bu gün onlar artıq düşmənçiliyi ölkə daxilində bir-birinə qarşı istiqamətləndirirlər. Baxın, Ermənistanın informasiya məkanında nə qədər çirkin proseslər gedir. Bir-birini nə qədər təhqir edirlər, hədələyirlər. Nəyə görə? Çünki onlar əsrlər boyu gənc nəsli düşmənçilik ruhunda böyütmüşdülər. Düşmənçilik, nifrət toxumları səpmişdilər və bu da onların iflasına gətirib çıxardı. Ona görə biz heç nəyi unutmayacağıq.

Ancaq biz artıq Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin qanını aldıq və qisasımızı döyüş meydanında aldıq. Amma bununla bərabər, Ermənistan dərk etməlidir ki, Azərbaycan bundan sonra da güclənəcək və bu, şübhəsizdir. O cümlədən bizim hərbi gücümüz artacaq. Müharibədən sonra artıq müvafiq göstərişlər verildi, yeni kontraktlar imzalandı, yeni silahların, texnikanın, müasir texnologiyaların əsasında texnikanın alınması prosesi başlamışdır. Silahlı Qüvvələrimizin struktur islahatları təsdiqləndi. Deyə bilərəm ki, Silahlı Qüvvələrimizin, Ordumuzun say tərkibi artırılacaq. Biz İkinci Qarabağ müharibəsinin nəticələrini və gedişatını düzgün təhlil edərək, əlbəttə ki, öz hərbi gücümüzü artıracağıq. Ermənistanın isə, əgər onlar yenə də bizə qarşı düşmənçilik siyasətindən əl çəkməsələr, nəinki hərbi gücünü, nəinki dağılmış, məhv edilmiş ordusunu bərpa etmək imkanı olmayacaq, eyni zamanda iqtisadi fəallığı bərpa etmək imkanları da çox məhduddur. Ona görə biz güclənəcəyik.

Ermənistanın inkişafı üçün də yeganə yol var - öz qonşuları ilə normal münasibətlər qurmaq və ərazi iddialarından əl çəkmək, Dağlıq Qarabağ sözünü ümumiyyətlə işlətməmək. Çünki Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur, Dağlıq Qarabağ münaqişəsi anlayışı yoxdur. Mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub, Ermənistan da bunu belə qəbul etməlidir və bizimlə sərhədlərin müəyyən edilməsi istiqamətində iş aparmalıdır. Delimitasiya üzrə işçi qrup yaradılmalıdır. Sülh müqaviləsinə hazırlıq işləri getməlidir. Biz bunu bəyan edirik. Biz qalib ölkəyik. Ermənistanı məhv etmişik, siz yaxşı bilirsiniz hansı çətin şərait əsasında. Onlar 30 il istehkamlar, 6 müdafiə xətti qurmuşdular. O bölgənin təbii relyefi onlar üçün çox əlverişli idi. Biz qəhrəman övladlarımızın canı-qanı bahasına, qəhrəmanlığı bahasına bu torpaqları azad etmişik. Ölümə gedirdi bizim gənclərimiz, əsgərlərimiz, zabitlərimiz. Hər kəs bunu deyirdi - öldü var, döndü yoxdur. Biz belə çətin şəraitdə qələbə qazanmışıq. Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, dəmir yumruq yerindədir.

Əziz hərbçilər, bu gözəl bayram günündə sizinlə görüşmək mənim üçün çox xoşdur. Silahlı Qüvvələr Gününü biz Müzəffər Ordu kimi, qəhrəman xalq kimi qeyd edirik. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

# Hərbi quruculuq sahəsində aparılan islahatlar, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi Ali Baş Komandanın diqqət mərkəzindədir

*Əvvəli 1-ci səh.*












Hərbi şəhərcikdə görülən işlər barədə məlumat verən müdafiə naziri Zakir Həsənov dedi ki, burada inşa olunan qərargah binasında hərbi hissə komandanlığının fəaliyyətinin yüksək səviyyədə təmin olunması üçün bütün şərait yaradılıb. Ərazidə klub da fəaliyyət göstərəcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə hərbi quruculuq sahəsində aparılan islahatlar, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər sırasında yeni hərbi hissə və hərbi şəhərciklərin yaradılması, mövcud olanların isə əsaslı şəkildə yenidən qurulması da xüsusi yer tutur. İndiyədək istər paytaxtda, istərsə də bölgələrdə yerləşən hərbi hissələr müasir səviyyədə yenidən qurulub, yeni hərbi hissə və şəhərciklər salınıb. Bu isə ordu quruculuğu sahəsinə dövlət səviyyəsində göstərilən diqqətin təzahürü olmaqla yanaşı, həm də hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılmasında və onların döyüş qabiliyyətinin artırılmasında müstəsna əhəmiyyət daşıyır.

Şübhəsiz ki, ordumuzun əsas dayaq nöqtəsi əsgər və zabitlərimizin yüksək döyüş hazırlığı, peşəkarlığı və qələbə əzmidir. Vətən müharibəsi ordumuzun tarixi torpaqlarımızın işğaldan azad edilməsi üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu göstərdi. Təsadüfi deyil ki, bu gün Azərbaycan əsgərinin Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq dünyanın nüfuzlu ali hərbi məktəblərində nümunə kimi göstərilir.

Prezident, Ali Baş Komandan İlham Əliyev döyüş növbətçiliyində olan S-300 PMU-2 “Favorit” Zenit Raket Komplekslərinin start mövqeyinə gəldi.

Azərbaycan Ordusunun müasir hərbi texnika, silah-sursatla təminatı daim Ali Baş Komandanın diqqət mərkəzində olub. Vətən müharibəsi də sübut etdi ki, Azərbaycan dövlətinin ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi, silahlanmaya yeni, müasir silah növlərinin, hərbi texnikanın daxil edilməsi istiqamətində atdığı addımlar müdrik və uzaqgörən siyasətin nəticəsidir. İndi Silahlı Qüvvələrimiz beynəlxalq hərbi tədqiqat mərkəzlərinin hesabatlarında dünyanın ən güclü ordularından biri kimi qiymətləndirilir.

Prezident, Ali Baş Komandan İlham Əliyevə yeni və müasir avadanlıqla təchiz edilmiş mobil Komanda Məntəqəsi barədə də məlumat verildi.

Bildirildi ki, məntəqə müxtəlif növ zenit-raket komplekslərinin, radiolokasiya vasitələrinin, radiotexniki kəşfiyyatın, radioelektron mübarizə vasitələrinin, kəşfiyyat və zərbə pilotsuz uçuş aparatlarının, ordu, qırıcı və hücum aviasiyasının eyni vaxtda idarə olunmasını təmin edir. Vətən müharibəsində aparılan döyüşlərin təcrübəsi nəzərə alınmaqla qurulan Komanda Məntəqəsinin texniki imkanları XXI əsr müharibələrinin tələblərinə tam cavab verir.

Sonra Ali Baş Komandana Hərbi Hava Qüvvələrinin bir sıra hərbi texnikası barədə məlumat verildi.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev Hərbi Hava Qüvvələrinin hərbi qulluqçularının ailələri üçün nəzərdə tutulmuş yeni xidməti mənzillərdə yaradılan şəraitlə tanış oldu.

Müdafiə naziri Zakir Həsənov dövlət başçısına mənzillərdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Hərbi Hava Qüvvələrinin zabit və gizirləri üçün nəzərdə tutulmuş yeni hərbi şəhərcik iki binada 48 xidməti mənzildən ibarətdir. Bütün mənzillərdə hərbi qulluqçularımızın ailələri ilə birlikdə rahat yaşaması üçün hər cür şərait yaradılıb. Bu da deməyə əsas verir ki, hərbçilərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların yeni evlərlə təmin edilməsi Prezident, Ali Baş Komandan İlham Əliyevin xüsusi nəzarətindədir.

Qeyd edək ki, Azərbaycan Ordusunun şəxsi heyətinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Bu məqsədlə son illərdə paytaxtda və bölgələrdə xidməti yaşayış evləri tikilib, Prezidentin Ehtiyat Fondundan bu məqsədlə xeyli vəsait ayrılıb. Bu isə dünya praktikasında çox nadir hallarda müşahidə olunan mənzərədir. Burada da Azərbaycan ön sıralardadır və yeniliklər göstərir. Prezident İlham Əliyevin bir qrup hərbi qulluqçuya təqdim olunacaq yeni mənzillərdə yaradılan şəraitlə yerindəcə tanışlığı bu siyasətin real təzahürü olmaqla, əlamətdar gündə onlara bəxş edilən ən gözəl hədiyyədir.

Həyatını Vətəni qorumaq kimi şərəfli vəzifəyə həsr edən hərbçilərimizə dövlət qayğısına onların rütbə və vəzifə maaşlarının artırılması, çoxsaylı güzəştlərin tətbiq olunması da daxildir. Bütün bunlar ordunun mənəvi-fiziki hazırlığını ən yüksək səviyyəyə qaldırmağa imkan verib. Çünki ordumuz müstəqilliyimizin və ərazi bütövlüyümüzün qarantıdır. Onun gücü öz xalqına və dövlətinə sədaqətdə, Vətən sevgisində təcəssüm tapıb.

# Bakıda dünya brendinə məxsus hotel istifadəyə verildi





Əvvəli 1-ci səh.

Məlumat verildi ki, “Courtyard by Marriott Baku” hotelində 365 otaq, iclas, idman zalları, restoran yaradılıb. Bu cür müasir hotel kompleksinin istifadəyə verilməsi həm də ölkəmizdə qeyri-neft sektorunun inkişafına töhfə olmaqla yanaşı, paytaxtın sosial-iqtisadi inkişafında mühüm rol oynayır, otel biznesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaradır.

Bu hotel kompleksi Avropada və dünyada xüsusi imicə malik hotellər şəbəkəsi tərəfindən inşa edilib. Son illər Azərbaycanda dünya brendlərinə məxsus bu cür hotellərin istifadəyə verilməsi ölkəmizdə əlverişli investisiya mühitinin olduğunu, bölgənin iqtisadi mərkəzi sayılan Azərbaycanın turizm sahəsində də qabaqcıl sıralarda qərarlaşdığını göstərir.

Qeyd edək ki, dünyada maliyyə və iqtisadi çətinliklərin olduğu, pandemiyanın ciddi fəsadlar yaratdığı bir dövrdə Prezident İlham Əliyevin gələcəyə baxış konsepsiyası sayəsində ölkəmizdə heç bir sosial-iqtisadi layihə təxirə salınmadı. Turizm infrastrukturunun inkişafı ilə bağlı həyata keçirilən davamlı tədbirlər, o cümlədən müasir mehmanxanaların istifadəyə verilməsi Azərbaycanda postpandemiya mərhələsinə daha uğurlu keçidi təmin etməkdə böyük rol oynayır.

## Baş nazir Əli Əsədov Türkiyənin Vitse-prezidenti Fuat Oktaya təbrik məktubu ünvanlayıb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktaya “Kanal İstanbul” marşrutu üzərində inşa ediləcək ilk körpünün təməlinin qoyulması münasibətilə təbrik məktubu ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubda layihənin uğurlu icrasının Türkiyənin iqtisadiyyatının daha da inkişaf etməsinə böyük töhfə verəcəyinə əminlik ifadə edilib.

## Ağcabədi şəhərinin 2035-ci ilə qədərki dövrdə inkişafına dair Baş planı təsdiq edilib

Ağcabədi şəhərinin 2035-ci ilə qədərki dövrdə inkişafına dair Baş planı təsdiqlənib. AZƏRTAC Nazirlər Kabinetinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, Baş nazir Əli Əsədov iyunun 29-da bununla bağlı qərar imzalayıb.

Ağcabədi şəhərinin təsdiqlənmiş Baş planı Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə “Azərdövlətlayihə” Dövlət Baş Layihə İnstitutu tərəfindən hazırlanıb. Baş plan layihəsi 2035-ci ilə qədər olan dövrü əhatə edir.

Baş planda nəzərdə tutulan illər üzrə şəhər əhalisinin yaşayış fondu, sosial və mədəni-məişət xidməti obyektləri üçün ərazilər nəzərə alınıb, şəhərin inkişafına uyğun olaraq təbii landşaftın qorunması və ərazi zonalarının nəzərə alınması ilə məskunlaşmanın aparılması prinsipi qorunub. Şəhərin infrastrukturunu təşkil edən nəqliyyat və mühəndis-kommunikasiya təminatı sistemlərinin genişləndirilməsi nəzərə alınıb.

## *Ceyhun BAYRAMOV:* “Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığa böyük önəm verir”

İyunun 29-da xarici işlər naziri Ceyhun Bayramov Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri İvana Duarte ilə ölkəmizdəki fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov Azərbaycanın AYİB ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayaraq, mövcud münasibətlərin uğurla inkişaf etdiyini vurğulayıb. Bank tərəfindən mühüm layihələrin, o cümlədən Cənubi Qaz Dəhlizi layihəsinin maliyyələşdirilməsində iştirak xüsusi qeyd edilib. Həmçinin AYİB-in Azərbaycan üzrə nümayəndəliyinin aidiyyəti nazirliklərlə həyata keçirdiyi uğurlu əməkdaşlıq məmnunluqla vurğulanıb.

Bankın nümayəndəliyinin rəhbəri İvana Duarte Azərbaycandakı fəaliyyətinin müsbət nəticələrindən bəhs edərək, bu xüsusda bərpaolunan enerji, dayanıqlı inkişaf sahələrində əməkdaşlığı xüsusi qeyd edib. 2019-cu ildə Azərbaycan Respublikası Baş nazirinin AYİB-in London şəhərindəki baş qərargahında keçirilən Şərq Tərəfdaşlığı İnvestisiya Sammitində iştirakının, habelə imzalanmış razılaşmaların əməkdaşlığın genişləndirilməsinə önəmli təkan verdiyi bildirilib.

Ceyhun Bayramov qarşı tərəfə münaqişədən sonrakı mərhələdə bölgədə mövcud olan vəziyyət və əməkdaşlıq imkanları barədə məlumat verərək, xüsusilə azad olunmuş ərazilərdəki bərpa və quruculuq işləri haqqında danışıb. Bu mərhələdə beynəlxalq tərəfdaşlarla, o cümlədən AYİB-lə əməkdaşlığın həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Nair Ceyhun Bayramov İvana Duarteyə Azərbaycandakı uğurlu fəaliyyətinə görə təşəkkür edərək, ona gələcək fəaliyyətində müvəffəqiyyətlər arzulayıb.

## Konstitusiya Məhkəməsində Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri ilə görüş olub

İyunun 29-da Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində ölkəmizdə səfərdə olan Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun (TİHEK) sədri Süleyman Arslanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev görüşdə çıxış edərək Azərbaycan-Türkiyə əlaqələrinin Ulu Öndər Heydər Əliyevin dediyi kimi, “Bir millət, iki dövlət” tezisinə əsaslandığını diqqətə çatdırıb. Sədr bildirib ki, qardaş ölkələrimiz arasındakı münasibətlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri uğurlu siyasət nəticəsində dayanmadan inkişaf edir. Böyük geosiyasi və iqtisadi potensiala malik bu strateji əməkdaşlıq regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlib.

Vurğulanıb ki, cari il iyunun 15-də ölkəmiz üçün mühüm mənəvi əhəmiyyət kəsb edən Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında bəyannamənin imzalanması tarixi hadisə kimi yaddaşımıza həkk olundu. Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, Türkiyə Cümhuriyyətinin müstəqil Azərbaycan Respublikasının əzəli torpaqları və ayrılmaz bir parçası olan Dağlıq Qarabağ, eləcə də işğal olunmuş digər ərazilər uğrunda Ermənistan silahlı qüvvələrinin işğalına və təxribatına qarşı apardığı mübarizədə dövlətimizin və xalqımızın haqq işini müdafiə etməsi, həm də ədalətin qələbə çalmasına dəstək verməsi əsl qardaşlıq göstəricisidir.

Bildirilib ki, təcavüz və işğal nəticəsində Azərbaycan vətəndaşlarına qarşı törədilmiş soyqırımı və etnik təmizləmə törətmiş şəxslər beynəlxalq səviyyədə məsuliyyətə cəlb olunmalıdırlar. Hazırda Bakıda Azərbaycan ərazisində terror-təxribat cinayətləri törətmiş erməni silahlı dəstələrinin üzvlərinin məhkəməsi keçirilir. Azərbaycan ərazisində insanlıq əleyhinə cinayət törətmiş hərbi cinayətkarların məsuliyyətə cəlb olunması ədalətin bərpasının tələbindən irəli gəlir.

Sədr Fərhad Abdullayev vurğulayıb ki, Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumu nəzdində beynəlxalq hüquq üzrə alimlərdən ibarət Qarabağ Müşahidə qrupunun yaradılması və azad olunan Azərbaycan torpaqlarında faktaraşdırıcı fəaliyyətinin həyata keçirilməsi və əsaslandırılmış hesabatların hazırlanması və beynəlxalq ictimaiyyətə çatdırılması böyük əhəmiyyət kəsb edir.

Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri Süleyman Arslan qonaqpərvərliyə və ətraflı məlumata görə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə minnətdarlığını ifadə edərək qurumun nəzdində təcrübəli tədqiqatçılardan ibarət Qarabağ Müşahidə Qrupunun fəaliyyətinin əsas istiqamətləri barədə ətraflı məlumat verib. Bildirib ki, Vətən müharibəsində Böyük Zəfər nəticəsində işğaldan azad olunmuş ərazilərimizdə Ermənistan hərbi-siyasi rəhbərliyinin törətdiyi müharibə cinayətləri, dağıdılmış tarixi, dini, mədəni, təhsil, səhiyyə, sosial obyektlərlə bağlı faktların toplanması, hesabatların hazırlanması məqsədilə Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumu nəzdində yaradılan Qarabağ Müşahidə Qrupunun üzvlərinin iyunun 28-dən iyulun 2-dək ölkəmizə səfəri çərçivəsində faktaraşdırıcı missiyanın həyata keçirilməsi planlaşdırılır.

Süleyman Arslan xüsusilə vurğulayıb ki, həyata keçirilən hazırkı missiya, işğaldan azad edilmiş torpaqlarda beynəlxalq hüquq pozuntuları barədə ətraflı məlumatın toplanması və tədqiq olunaraq mötəbər beynəlxalq təşkilatlara çatdırılması Türkiyə Cümhuriyyətinin Azərbaycanın haqq işində ölkəmizə daimi dəstəyinin tərkib hissəsidir.

Qeyd edilib ki, müasir dünyada informasiyanın sürətli mübadiləsi, məlumatların əldə olunması, operativ və obyektiv şəkildə beynəlxalq ictimaiyyətə təqdim edilməsi qeyri-ədalətli və qərəzli mövqelərin formalaşdırılmasının qarşısının alınması və beləliklə, beynəlxalq hüququn norma və prinsiplərinin təmin olunmasına töhfə verə bilər.

Söhbət zamanı ətraflı fikir mübadiləsi aparılıb, hüquqi məsələlər müzakirə olunub.

Görüşdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva da iştirak ediblər.

## Azərbaycan ərazisində terror-təxribat cinayətləri törədən erməni silahlı dəstələrinin üzvlərinin növbəti məhkəməsi keçirilib

İyunun 29-da Bakı Ağır Cinayətlər Məhkəməsində 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin üzvlərinin cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə bu cinayət işi üzrə təqsirləndirilən 14 nəfərin - Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç, Baqasyan Armen Yegizari, Qasparyan Qor Vaqramini, Sefilyan Kamo Karenoviç, Hakobyan Volodiya Vaçaqani, Asetryan Gevorq Norairoviç, Yenqoyan Sisak Qrişai, Petrosyan Albert Kamoyeviç, Sedrakyan Romik Misakini, Minasyan Aram Qarnikoviç, Minosyan Mkrtıç Simonoviç, Matesyan Edqar Vaçaqanoviç və Karapetyan Yuri Tiqranoviçin terror-təxribat cinayətləri ilə bağlı cinayət işinə baxılıb.

İctimaiyyətə açıq və şəffaf şəkildə keçirilən məhkəmə iclasında media nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Əvvəlcə təqsirləndirilən şəxslərə hüquqları izah edilib, onlara dövlət hesabına vəkillər və tərcüməçi ilə təmin olunduqları xatırladılıb.

Prosesdə təqsirləndirilən şəxslərə sərbəst ifadə vermək təklif olunub.

Məhkəmə prosesi təqsirləndirilən şəxslərin sərbəst ifadələrinin alınması ilə davam etdirilib. Təqsirləndirilən şəxslərdən altı nəfəri - Asetryan Gevorq Norairoviç, Hakobyan Volodiya Vaçaqani, Minosyan Mkrtıç Simonoviç, Karapetyan Yuri Tiqranoviç, Sedrakyan Romik Misakini, Matesyan Edqar Vaçaqanoviç dindiriliblər.

Fasilədən sonra Petrosyan Albert Kamoyeviç, Qasparyan Qor Vaqramini, Minasyan Aram Qarnikoviç, Sefilyan Kamo Karenoviç, Baqasyan Armen Yegizari, Yenqoyan Sisak Qrişai ifadə veriblər. Onlar ifadələrində olduqları ərazidə Azərbaycan Ordusunun hərbçiləri gələcəyi təqdirdə silahlı müqavimət göstərməklə bağlı tapşırıq aldıqlarını bildiriblər. İfadə verən şəxslər məhkəmə prosesində hakimin, prokurorun və vəkillərin suallarını cavablandırıblar.

Növbəti məhkəmə iclası iyulun 2-nə təyin edilib.

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il dekabrın 13-də keçirilmiş antiterror əməliyyatı nəticəsində tərk-silah edilmiş üzvləri barəsində cinayət işinin istintaqı DTX-nin İstintaq Baş İdarəsində aparılıb.

İstintaqla müəyyənləşdirilib ki, Ermənistan Respublikasının vətəndaşlarından ibarət bir qrup şəxs qanunsuz şəkildə odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr yaratmışlar. Həmin birləşmələrin üzvləri 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq 2020-ci il dekabrın 13-dək ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar edib, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Bu faktlarla bağlı, qanunsuz silahlı birləşmənin üzvləri Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç və digərlərinin, ümumilikdə 14 təqsirləndirilən şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunurlar.

## Bakı Apellyasiya Məhkəməsində Azərbaycan ərazisində terror-təxribat cinayətləri törədən erməni silahlı dəstələrinin üzvləri ilə bağlı məhkəmə iclası keçirilib

Ötən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatla atəşkəsin elan edilməsindən sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin üzvləri ilə bağlı cinayət işi üzrə iyunun 29-da Bakı Apellyasiya Məhkəməsinin inzibati binasında növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən prosesdə bu cinayət işi üzrə təqsirləndirilən 13 nəfər - Hovanesyan Haykaz Koryunoviç, Manukyan Varazdat Amuşavanoviç, Stepanyan David Stepanoviç, Tosunyan Levan Aşotoviç, Baqdasaryan Artur Eduardoviç, Avakyan Serop Surenoviç, Arutyunyan Varazdat Seryojeviç, Manukyan Jora Vanoeviç, Herabyan Hrayr Hraçoviç, Qosparyan Narek Aqaoviç, Kureqyan Qriqor Qaqiqoviç, Qevorkyan Aşot Artakoviç, Aqramanyan Martin Muşeğoviçin terror-təxribat cinayətləri ilə bağlı cinayət işinə baxılıb.

Prosesdə məhkəmə tərkibi və dövlət ittihamçısı təqsirləndirilən şəxslərə təqdim edilib. Daha sonra məhkəmə təqsirləndirilən şəxslərin hüquqlarını izah edib.

Prosesdə təqsirləndirilən şəxslər ibtidai istintaqdan və saxlanma şəraitindən narazı olmadıqlarını bildiriblər.

Daha sonra dövlət ittihamçısı ittiham aktını elan edib. İttiham aktında qeyd olunub ki, təqsirləndirilən şəxslər qanunsuz şəkildə odlu silah, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr yaratmaqda ittiham olunurlar.

Məhkəmə iclasında prosesin iyulun 2-də davam etdirilməsi barədə qərar qəbul olunub.

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən 2020-ci il dekabrın 13-də keçirilmiş antiterror əməliyyatı nəticəsində tərk-silah edilmiş üzvləri barəsində cinayət işinin istintaqı DTX-nin İstintaq Baş İdarəsində aparılıb.

İstintaqla müəyyən edilib ki, Ermənistan Respublikasının vətəndaşlarından ibarət bir qrup şəxs qanunsuz şəkildə odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr yaradıblar. Həmin birləşmələrin üzvləri 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq 2020-ci il dekabrın 13-dək ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar edib, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Bu faktlarla bağlı qanunsuz silahlı birləşmənin üzvləri Hovanesyan Haykaz Koryunoviç, Manukyan Varazdat Amuşavanoviç, Stepanyan David Stepanoviç, Tosunyan Levan Aşotoviç və digərlərinin, ümumilikdə 13 təqsirləndirilən şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunurlar.

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Macarıstana rəsmi səfəri başlayıb

İyunun 28-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Macarıstanın paytaxtı Budapeşt şəhərinə gedib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, "Budapeşt Liszt Ferenc" hava limanında nümayəndə heyətimizi Macarıstan parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri Attila Tilki, Macarıstan parlamentinin Parlamentlərarası əlaqələr üzrə departamentinin rəhbəri Layoş Kohari, ölkəmizin Macarıstandakı səfiri Vilayət Quliyev və digər rəsmi şəxslər qarşılayıblar.

Bu gün Milli Məclisin nümayəndə heyətinin Budapeştdə rəsmi görüşləri başlayıb.

# Milli Məclisin nümayəndə heyəti ölkəmizin Macarıstandakı səfirliyində olub

Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycanın parlament nümayəndə heyəti Macarıstanda rəsmi səfərdədir.



AZƏRTAC xəbər verir ki, iyunun 28-də nümayəndə heyətinin üzvləri Azərbaycanın Macarıstandakı səfirliyində əməkdaşlar üçün yaradılmış şəraitlə yaxından tanış olublar.

Nümayəndə heyətinin üzvləri səfirlikdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin büstünün önünə gül dəstələri qoyub, əməkdaşlarla səfirliyin fəaliyyəti barədə söhbətlər aparıblar.

# Milli Məclisdə bir qrup tanınmış idmançı ilə görüş keçirilib

İyunun 29-da Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edən idmançıların bir qrupu ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, mövcud pandemiya qaydalarına riayət etməklə keçirilən görüşdə idmançılarımızı maraqlandıran məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb. Bildirilib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş idman siyasəti bu gün dövlətimizin başçısı tərəfindən çox böyük uğurla davam etdirilir. İdman sahəsinə göstərilən diqqət və qayğının nəticəsidir ki, idmançılarımız beynəlxalq yarışlardan çoxsaylı medallarla geri dönüblər. 1997-ci ildə Prezident İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra ölkəmizdə idman sahəsində görülən işlər daha geniş vüsət alıb. İdmanın maddi-texniki bazasının formalaşdırılması, idmançılarımızın təminatlarının ən yüksək səviyyəyə çatdırılması, onlar üçün lazımi şəraitin yaradılması görülən işlərin bariz nümunələridir.

Qeyd olunub ki, məhz bu diqqət və qayğının nəticəsində idmançılarımız beynəlxalq yarışlara yüksək səviyyədə hazırlaşır, bayrağımızı dalğalandırır, himnimizi səsləndirirlər. Ölkəmizin medalların sayına görə ön sıralara yüksəlməsi hər bir azərbaycanlını qürurlandırır.

A.Əliyev vurğulayıb ki, idmançılarımız beynəlxalq yarışların qalibi olmaqla yanaşı, Azərbaycan olimpiadaların, beynəlxalq idman yarışlarının ən yüksək səviyyədə keçirildiyi ölkəyə çevrilib. İstər Avropa Oyunlarının, istər IV İslam Həmrəyliyi Oyunlarının, habelə Formula 1 kimi beynəlxalq yarışları yüksək səviyyədə təşkil edən Azərbaycan beynəlxalq idman aləmdə layiqli yerini tutub.

Diqqətə çatdırılıb ki, idmançılarımızın qazandıqları qələbələrin istərsə gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsində, istərsə də bədən tərbiyəsinin kütləviləşməsində və sağlam vətəndaş yetişdirilməsində rolu olduqca mühümdür. Xüsusilə də gənc nəslin milli-mənəvi dəyərlərə bağlı, vətənpərvər, sağlam ruhda yetişdirilməsində idmanın rolu danılmazdır.

Görüşdə Adil Əliyev WAKO-da dünya və Avropa çempionu olan Amin Quliyevi "İdman ustası" adı alması münasibətilə təbrik edib. Bildirib ki, o, bu ada layiq görülən ən gənc idmançılardan biridir.

Sonunda iştirakçılara qarşılarına qoyulan vəzifələrin öhdəsindən bundan sonra da layiqincə gəlməyin vacibliyi tövsiyə edilib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən döyüş meydanında qazanılmış Zəfərin beynəlxalq yarışlarda da davam etdirilməsinin zəruriliyi xüsusi vurğulanıb.

Görüş iştirakçıları səmimi qəbula görə təşəkkürlərini bildiriblər.

Sonda iştirakçılara Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim edilib.

# Milli Məclisin Sədri Türk Şurasının Budapeşt nümayəndəliyinin ofisində çıxış edib





Macarıstanda rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlamentinin nümayəndə heyəti iyunun 29-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Budapeşt nümayəndəliyinin ofisində "2021-ci il - Nizami Gəncəvi ili"nə həsr olunmuş tədbirdə iştirak edib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbiri Türk Şurasının Budapeşt ofisinin rəhbəri Yanoş Hovari açaraq spiker Sahibə Qafarovanın rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətini salamlayıb. O, Türk Şurası çərçivəsində əməkdaşlıqdan bəhs edərək Macarıstanın bu qurumda müşahidəçi qismində fəaliyyəti ilə bağlı fikirlərini bölüşüb.

Macarıstan Xarici İşlər Nazirliyinin dövlət katibinin müavini Andraş Baranye çıxış edərək Azərbaycan ilə Macarıstan arasında münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri haqqında danışıb. O, Azərbaycanın Macarıstan üçün qardaş və strateji tərəfdaş dövlət olduğunu vurğulayıb, münasibətlərin dinamik inkişafından məmnunluğunu ifadə edib. A.Baranye Türk Şurası çərçivəsində həyata keçirilən əməkdaşlığın iki ölkə arasında ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini qeyd edib.

Milli Məclisin Sədri Sahibə Qafarova tədbirdə çıxış edərək Türk Şurasının Budapeştdəki ofisini dərin tarixi kökləri rəmzləşdirən, türk dünyası ilə macarları birləşdirən məkan kimi yüksək dəyərləndirib. O, Macarıstan parlamentinin türk dünyasına inteqrasiyanı davam etdirmək qərarının əhəmiyyətini vurğulayıb. Milli Məclisin Sədri qeyd edib ki, hazırda həm Macarıstan, həm də türkdilli dövlətlər əməkdaşlığı dərinləşdirmək üçün səy göstərirlər. Macarıstan Türk Şurasına cəmi üç il əvvəl qəbul edilsə də, əlaqələrin möhkəmləndirilməsi üçün ötən müddətdə xeyli addımlar atılıb. Siyasi əlaqələrin möhkəmlənməsinin digər sahələrə təsirinə toxunan Azərbaycan parlamentinin sədri bildirib ki, bu baxımdan Macarıstan ilə türkdilli ölkələr arasında məqsədyönlü birgə səylər iqtisadiyyatda artıq müsbət nəticələrini verib.

Şuranın bütün üzv dövlətlərinin nümayəndələrinin Budapeştə - Türk Şurasının nümayəndəliyinə təşrif gətirməsini xalqlarımız arasında təmasların daha bir təcəssümü olduğunu söyləyən Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan, Türkiyə, Qırğızıstan, Özbəkistan və Qazaxıstan nümayəndələri macar həmkarları ilə birgə mövcud əlaqələrin intensivləşməsinə böyük əhəmiyyət verirlər. Bu gün Türk Şurası öz strateji baxışını yaratmaq üzərində işləyir. "Türk dünyasının baxışı-2040" bir yol xəritəsidir, ondan istifadə edərək biz xarici siyasət sahəsində daha yaxşı əlaqələndirməyə, təhlükəsizlik sahəsində aydın əməkdaşlığa, aramızda azad ticarət müqavilələrinin imzalanmasına, nəqliyyat əməliyyatları üçün sərhədlərin açılmasına və əlbəttə ki, dil və əlifba sahələrində daha dərin əməkdaşlığa doğru irəliləyə bilərik. Bu sahələr bizi heç vaxt olmadığı qədər yaxınlaşdırır və ölkələrimiz arasındakı inteqrasiya proseslərinə töhfə verir. Ortaq proqramlara və müxtəlif sahələrdə daha dəqiq əlaqələndirməyə malik olmaqla biz türk dünyası üçün daha yaxşı gələcək qura bilərik.

Sahibə Qafarova qeyd edib ki, Türk Şurasının qarşıya qoyduğu vacib vəzifələrdən biri də beynəlxalq terrorizm, separatizm, ekstremizm və transsərhəd cinayətlərə qarşı mübarizədə fəaliyyətlərin koordinasiyasıdır. Sədr bu baxımdan tədbir iştirakçılarına xatırladıb ki, Azərbaycan 30 il ərzində Ermənistanın işğalından əziyyət çəkib. Keçən il isə Azərbaycan öz hərbi-siyasi imkanlarından istifadə edərək otuz illik erməni işğalına son qoyub. Təəssüf ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi üç onillik ərzində, Azərbaycan özü bu qərarların icrasını təmin edərək ərazi bütövlüyünü bərpa edənə qədər kağız üzərində qalmışdı. Azərbaycan tarixi torpaqları olan Qarabağı qırx dörd günlük Vətən müharibəsi zamanı tamamilə azad etdi və Ermənistanı 2020-ci il noyabrın 10-da təslim aktını imzalamağa məcbur etdi. Spiker təcavüzə və işğala qarşı aparılmış Vətən müharibəsində Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiklərinə görə Türk Şurasına üzv dövlətlərin hökumətlərinə və xalqlarına öz adından və Azərbaycan Respublikasının Milli Məclisi adından səmimi təşəkkürünü ifadə edib.

Milli Məclisin Sədri vurğulayıb ki, ölkələrimizin türk birliyinin parlament ölçüsünü yaratmağa nail olmaları çox sevindiricidir. Türkdilli Ölkələrin Parlament Assambleyası - TÜRKPA xalqlarımız arasındakı mövcud əməkdaşlığın dərinləşməsi üçün son dərəcə vacibdir. Əminliklə ifadə edilib ki, TÜRKPA-da müşahidəçi statusuna malik olan Macarıstanın bu qurumla inteqrasiyası dərinləşdikcə xalqlarımız bir-birinə daha da yaxınlaşacaq. Türk Şurasına üzv olmaq üçün digər ölkələrdən gələn yeni müraciətlər məmnunluq doğurur, 10-dan çox tərəfdaşımız bu qurumda müşahidəçi statusu almaq niyyətlərini ifadə ediblər.

Sonra Nizami Gəncəvinin Macarıstanda dərc olunan və dahi Azərbaycan şairinə həsr olunan kitabın tərcüməçisi Laura Pal, Peri Benedik və digərləri çıxış ediblər.

Tədbirdə Nizami Gəncəvinin xatirəsinə həsr edilmiş proqram nümayiş olunub.

# Milli Məclisdə "Ali təhsil haqqında" qanun layihəsi müzakirə olunub

İyunun 29-da Milli Məclisin Elm və təhsil komitəsinin və "Ali təhsil haqqında" qanun layihəsi üzrə yaradılmış işçi qrupunun birgə iclası keçirilib.

Komitə sədri, işçi qrupunun rəhbəri Bəxtiyar Əliyev iclası açaraq bildirib ki, bu gün ölkəmiz elmi biliklərin, təcrübənin nəsildən-nəslə ötürməyə əsas verən müasir təhsil sistemi şəbəkəsinə malikdir. XXI əsrin çağırışlarına cavab verən və müstəqil dövlətimizin iqtisadi inkişafını təmin edə biləcək yeni müasir təhsil sisteminin yaradılmasının əsasları Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub.

Bildirilib ki, bu sahədə düşünülmüş siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən tədbirlər arasında Bolonya prosesi önəmli yer tutur. Bu baxımdan dövlət başçısı tərəfindən Azərbaycanda ali təhsilin inkişafını, Avropa təhsil məkanına sərbəst çıxışı əldə edə biləcək mütəxəssis hazırlığını təmin etmək məqsədi ilə ölkəmizin Bolonya prosesinə qoşulması ilə bağlı mühüm qərar qəbul edilib. Azərbaycan 2005-ci il mayın 9-da Bolonya prosesinə qoşulub və bununla da ali təhsil sahəsində aparılacaq islahatın istiqaməti və məzmunu müəyyən edilib. Bolonya deklarasiyasının müddəalarını həyata keçirmək məqsədi ilə Təhsil Nazirliyi və Nazirlər Kabineti tərəfindən ötən müddət ərzində çoxsaylı qərarlar qəbul edilib və ali təhsilin yenidən qurulması ilə bağlı bir çox işlər görülüb.

Ali təhsil sahəsində islahatları sürətləndirmək məqsədilə Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" 31 yanvar 2008-ci il tarixli sərəncam imzalayıb. Bu sənəddə nəzərdə tutulan bir çox məsələlər artıq həyata keçirilib. Bununla yanaşı, bir sıra digər mühüm qərarlar da qəbul edilib. Belə ki, "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı", "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" ölkə başçısı tərəfindən təsdiq edilib. Azərbaycanda təhsilin inkişafı üzrə dövlət strategiyasının təsdiq edilməsi yeni istiqamətləri müəyyən edib, islahatları daha da sürətləndirib.

Komitə sədri ölkə Prezidentinin "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 16 noyabr 2018-ci il tarixli sərəncamını xüsusi qeyd edərək bildirib ki, müzakirəyə çıxarılan "Ali təhsil haqqında" qanun layihəsi bilavasitə dövlət başçısı tərəfindən ali təhsilin qarşısında qoyulmuş məsələlərin dairəsini, rəqabət qabiliyyətli ali təhsil müəssisələrinin yaradılmasını, ölkədə gedən sürətli iqtisadi inkişafın kadr təminatının əsaslarını müəyyən edir.

Qeyd edilib ki, Azərbaycanda təhsilin inkişafına Heydər Əliyev Fondunun da böyük dəstəyi var. Fondun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" və digər proqramlar çərçivəsində bir çox layihələr həyata keçirilib.

Bəxtiyar Əliyev deyib ki, təhsil sahəsində həyata keçirilən islahatlar çərçivəsində, o cümlədən qəbul edilmiş dövlət proqramlarının hər birində ali təhsilin yeni normativ hüquqi bazasının yaradılmasının zəruriliyi bildirilir. Diqqətə çatdırılıb ki, ali təhsilin inkişafını, bu istiqamətdə islahatların sürətləndirilməsini təmin etmək üçün "Ali təhsil haqqında" qanun layihəsinin hazırlanması üzrə işçi qrupu Milli Məclisin Elm və təhsil komitəsi tərəfindən 2019-cu ilin sentyabr ayında yaradılıb. İşçi qrupuna komitənin üzvləri, parlament Aparatının müvafiq şöbələrinin əməkdaşları, Təhsil Nazirliyinin nümayəndələri, rektorlar və təhsil ekspertləri daxildir. Ötən müddət ərzində işçi qrupun üzvləri məhsuldar işləyib, çox sayda müzakirələr aparıblar.

Bildirilib ki, cari ilin yanvar ayında Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü və iştirakı ilə işçi qrupunun görüşü keçirilib. Tədbirdə, təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri, müvafiq dövlət qurumlarının nümayəndələri, ekspertlər iştirak ediblər.

Diqqətə çatdırılıb ki, müzakirəyə təqdim olunan "Ali təhsil haqqında" qanun layihəsi 9 fəsil, 54 maddədən ibarətdir. Qarşıda duran əsas vəzifələrdən biri yenilikçi, yaradıcı, müstəqil düşüncəli, vətənpərvər şəxsiyyətin formalaşdırılmasıdır. Layihənin hazırlanması zamanı ölkəmizin təcrübəsi, mövcud olan normativ-hüququ aktlar, Avropa ölkələrinin ali təhsil sahəsində qanunları, beynəlxalq konvensiyaların müddəaları işçi qrupu tərəfindən geniş araşdırılıb, təhlil edilib. Bu qanun Azərbaycanda ali təhsilin yenidən qurulması və Avropa təhsil məkanına ölkəmizdə əldə edilmiş təcrübənin, milli-mənəvi dəyərlərin, milli təhsil sistemimizin qorunması nəzərə alınmaqla tam uyğunlaşdırılması üçün hüquqi baza yaradır. Layihəyə əsasən, ali təhsil 4 səviyyəni müəyyən edəcək. Bu səviyyələr arasındakı keçidlər kreditlərin toplanması, təhsil müddətlərinin müəyyən edilməsi, əmək bazarının tələblərinə uyğun olaraq peşə standartlarının, peşə standartları əsasında isə ali təhsil proqramlarının hazırlanmasına imkan yaradacaq.

İclasda iştirak edən təhsil naziri Emin Əmrullayev deyib ki, təqdim olunan qanun layihəsi Azərbaycan təhsilinin qarşısında duran vacib çağırışları həll etmək baxımından böyük əhəmiyyətə malikdir. Azərbaycan ali təhsil sahəsində bir sıra beynəlxalq konvensiyalara qoşulub. Məqsəd ali təhsilin əlçatanlığının, keyfiyyətli olmasının, bərabər imkanlara söykənməsinin təmin edilməsi, ali təhsil müəssisələrinin idarə edilməsi ilə bağlı məsələlərin həll olunmasıdır. İclasda qeyd edilib ki, Azərbaycan təhsilinin öz ənənələri mövcuddur, 100 yaşlı ali təhsil müəssisəmiz var. Eyni zamanda, dünyada sürətli dəyişikliklər baş verir. Biz bu dəyişiklikləri Azərbaycan ali təhsilinə gətirmək istəyirik. Artıq kvalifikasiyalar çərçivəsində ali təhsilin qurulması nəzərdə tutulub, eyni zamanda, pillələr və səviyyələr anlayışları da saxlanılır. Bəzi məsələlər var ki, onlar Azərbaycan təhsilinin keyfiyyəti, elminin inkişafı baxımından öz həllini tapmalıdır. Bununla yanaşı, Azərbaycanın qoşulduğu beynəlxalq sənədlər və onlardan irəli gələn tələblərin yerinə yetirilməsi də önəmlidir.

Bu qanun layihəsinin böyük bir hissəsi ənənələrə söykənir, bir sıra müddəalar var ki, burada mütəxəssis rəyi, təhqiqatlar böyük önəm daşıyır, həmçinin qəbul prosesi, ixtisas seçimi ilə bağlı şəffaflığın təmin edilməsinə dair məqamlar da əhəmiyyətlidir.

Ali təhsilin əlçatanlığı, bu sahədə idarəetmə, təlim-tədris prosesi, habelə rus bölmələrində təhsilin qurulması, regionlarda təhsilin səviyyəsi və bir sıra digər aktual məsələlər barədə fikirlər səsləndirilib.

Tədbirdə iştirak edən komitə sədrinin və işçi qrupu rəhbərinin müavini Musa Qasımlı, qrupun üzvləri - deputatlar Ceyhun Məmmədov, Anar İsgəndərov, Etibar Əliyev, Eldar Quliyev, Şahin Seyidzadə, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə, deputatlar Müşfiq Məmmədov, Tamam Cəfərova qanun layihəsi barədə öz qeyd və təkliflərini söyləyiblər.

Qeyd olunub ki, müzakirələr zamanı daxil olan təkliflər də nəzərə alınmaqla layihə üzərində iş davam etdiriləcək. Layihə ilə bağlı QHT və ictimaiyyət nümayəndələrinin iştirakı ilə geniş müzakirələr də nəzərdə tutulub. Qəbul ediləcək qanun ali təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edəcək.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Azərbaycan və Türkiyə təhdidlərə qarşı birgə mübarizə aparırlar

İyunun 29-da Milli Məclis Sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli işğaldan azad edilmiş ərazilərdə faktaraşdırıcı missiya həyata keçirmək məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun nümayəndə heyəti ilə görüşüb.

Fəzail İbrahimli Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri Süleyman Arslanın başçılıq etdiyi nümayəndə heyətini Qalib Azərbaycanda salamlamaqdan məmnunluğunu ifadə edib. O, bu qalibiyyətin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərlik bacarığı, sərkərdə qabiliyyəti sayəsində milli birliyimiz, ölkənin iqtisadi qüdrəti, ordumuzun rəşadəti ilə əldə olunduğunu vurğulayıb. Fəzail İbrahimli Azərbaycanın bu haqq işində Türkiyənin dəstəyini yüksək qiymətləndirib. Milli Məclis Sədrinin müavini Azərbaycan və Türkiyənin dünya dövlətləri arasında layiqli yer tutaraq bütün təhdidlərə qarşı birgə mübarizə apardığını diqqətə çatdırıb.

Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri Süleyman Arslan 100 il əvvəl olduğu kimi, indi də Türkiyə və Azərbaycanın dünya imperializminə qarşı birgə səylərlə mübarizə apardığını qeyd edib və təmsil etdiyi təşkilatın azərbaycanlı qardaşlarının hüquqlarının qorunması üçün beynəlxalq arenada hər cür dəstək verməyə hazır olduğunu bildirib.

Görüşdə iştirak edən Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva 44 günlük Vətən müharibəsinin ilk günündən qardaş Türkiyə rəhbərliyinin və xalqının mənəvi dəstəyini, xüsusən də insan hüquqlarının müdafiəsi sayəsində göstərilən köməyi xüsusi qeyd edib, Türkiyənin İnsan Hüquqları və Bərabərlik Qurumunun Qarabağ qrupu yaratmasını yüksək dəyərləndirib. O, Türkiyə nümayəndə heyətinin səfər çərçivəsində müharibə nəticəsində zərər çəkmiş ərazilərdə araşdırmalar aparacağını bildirib.

Görüşdə Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Azərbaycan və Türkiyəni birləşdirən dəyərlərdən, bu birliyin davam etməsinin əhəmiyyətindən bəhs edib.

Sonra qonaqların suallarına cavab verilib, qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

***İlhamə İSABALAYEVA, "Azərbaycan"***

# Azərbaycan BMT qətnamələrinin icrasını özü təmin edib

İyunun 28-də Milli Məclisin deputatları, NATO PA-da Azərbaycan nümayəndə heyətinin üzvləri Məlahət İbrahimqızı və Kamran Bayramov NATO Parlament Assambleyasının videokonfrans formatında keçirilən Rouz-Rout seminarına qatılıb.

"Cənubi Qafqazda keçmişdən qalma dilemmalar və yeni təhlükəsizlik çağırışları" mövzusuna həsr olunan tədbir NATO PA-nın prezidenti Cerald Edvard Konollinin moderatorluğu ilə keçirilib.

Tədbirdə Milli Məclisin Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı çıxış edərək 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqaz bölgəsində yaranan yeni reallıqlardan və imkanlardan bəhs edib, regionda sülhün və təhlükəsizliyin təmini, faydalı əməkdaşlığın və iqtisadi inkişafın davamlılığı üçün görülməli işlərdən söz açıb. Bildirib ki, beynəlxalq ictimaiyyət Ermənistanda və xaricdə olan revanşist qüvvələrə qarşı ciddi tədbirlər görməli, regionda kommunikasiya xətlərinin yolların təxirə salınmadan açılması, işğaldan azad olunmuş bütün ərazilərin minalanma xəritələrinin qısa müddətdə ölkəmizə təhvil verilməsi, Azərbaycan və Ermənistan arasındakı sərhədlərin demarkasiya və delimitasiyasının aparılması işlərini dəstəkləməlidir. Qeyd edib ki, bütün bölgə xalqlarının da mənafeyinə və rifahına uyğun olan bu tədbirlər Ermənistanı da iqtisadi tənəzzüldən qurtarar, xalqlar arasında bir-birinə etimad mühiti yaradar.

Deputat Kamran Bayramov isə çıxışında Ermənistan nümayəndələrinin Azərbaycana qarşı irəli sürdükləri iddialara cavab verib. O, Ermənistan tərəfindən səsləndirilən ermənilərin "suveren" ərazisinin işğalı, azad olunmuş ərazilərdə erməni abidələrinin dağıdılması ittihamlarını rədd edib. Azərbaycanda guya ermənilərə nifrətin olması iddiasına cavabında isə bildirib ki, bu gün ölkəmizdə 30 minə yaxın ermənının yaşaması, Ermənistanda isə bir nəfər də olsun azərbaycanlının yaşamaması hansı dövlətin nifrət siyasətini həyata keçirdiyini göstərir.

Avropalı ekspert Tomas de Vaala isə bildirib ki, ərazi bütövlüyü beynəlxalq hüququn əsas prinsiplərindən biridir və Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənib, müvafiq sənədlər qəbul olunub. Təkcə BMT Təhlükəsizlik Şurasında münaqişə ilə bağlı 4 qətnamə qəbul edilsə də, onlar icra olunmayıb, lakin uzun illər sonra Azərbaycan bu qətnamələrin icrasını özü təmin edib.

Bununla da NATO Parlament Assambleyasının videokonfrans formatında keçirilən Rouz-Rout seminarı başa çatıb.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# "Anadolu Qartalı - 2021" təlimində hava döyüşləri üzrə tapşırıqlar icra edilib

Türkiyənin Konya şəhərində müxtəlif ölkələrdən olan uçuş heyətlərinin iştirakı ilə keçirilən "Anadolu Qartalı - 2021" beynəlxalq taktiki-uçuş təlimində Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) hərbi pilotları növbəti tapşırığı icra ediblər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan HHQ-nin hərbi pilotları şərti düşmənin yerüstü hədəflərini lazer müşahidə cihazları ilə aşkarlayaraq onlara zərbələr endirib və hava döyüşlərinin aparılması üzrə tapşırıqları yerinə yetiriblər.

# İyul ayında həftəsonları metro və avtobusların fəaliyyəti dayandırılacaq

Nazirlər Kabineti xüsusi karantin rejimində ictimai nəqliyyatın fəaliyyəti ilə bağlı qərar qəbul edib.

AZƏRTAC xəbər verir ki, qərara əsasən, bu il iyulun 4-ü saat 00:00-dan iyulun 5-i saat 06:00-dək, iyulun 10-u saat 00:00-dan iyulun 12-si saat 06:00-dək, iyulun 17-si saat 00:00-dan iyulun 19-u saat 06:00-dək, iyulun 24-ü saat 00:00-dan iyulun 26-sı saat 06:00-dək, iyulun 31-i saat 00:00-dan avqustun 1-i saat 06:00-dək ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılır.

# FHN işçilərinin həmkarlar ittifaqı Silahlı Qüvvələr Günü ilə əlaqədar Qarabağ Regional Mərkəzində görüş keçirib

Fövqəladə Hallar Nazirliyi (FHN) işçilərinin həmkarlar ittifaqının sədri Mehman İsmayılov 26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə nazirliyin Qarabağ Regional Mərkəzinin şəxsi heyəti ilə görüş keçirib.




FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra tədbirdə çıxış edən FHN işçilərinin həmkarlar ittifaqının sədri Mehman İsmayılov Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələb və təkidi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda nizami ordu quruculuğu sahəsində həyata keçirdiyi tarixi işlərdən bəhs edib. O bildirib ki, Ulu Öndərin 1998-ci il mayın 22-də imzaladığı fərmanla 26 iyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü təsis edilib və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd olunur. Ulu Öndərin mütərəqqi siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilmiş tədbirlər sayəsində Azərbaycan Ordusu bu gün dünyanın ən qüdrətli orduları sırasında yer alıb. Qırx dörd günlük Vətən müharibəsində ordumuzun göstərdiyi misilsiz qəhrəmanlıq və şücaət bunun bariz sübutudur.

Mehman İsmayılov Vətən müharibəsindən bəhs edərkən vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistan ordusunun "məğlubedilməzliyi" barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri xalqımızın iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

Vurğulanıb ki, Vətən müharibəsində FHN-in aidiyyəti qurumları ilə birlikdə Qarabağ Regional Mərkəzinin şəxsi heyəti də öz vəzifəsini layiqincə yerinə yetirib. Müharibə zamanı mənfur düşmənin mülki insanları hədəfə alması, dağıntılar törətməsi nəticəsində zərər görmüş mülki əhalinin təxliyəsi, dağıntılar altından xilas edilməsi, mülki infrastruktura dəymiş zərərin aradan qaldırılmasında vəzifə borcunu şərəflə yerinə yetirib.

Sonda FHN işçilərinin həmkarlar ittifaqı tərəfindən Regional Mərkəzin bir qrup əməkdaşına fəxri fərman və hədiyyələr təqdim olunub.

# "Bakı Metropoliteni" QSC-nin vaqon parkında yanğın-taktiki təlim keçirilib

Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti və Dövlət Yanğından Mühafizə xidmətləri razılaşdırılmış cədvələ əsasən, "Bakı Metropoliteni" QSC-nin Nəriman Nərimanov adına elektrik deposunun ərazisində yerləşən vaqon parkında yanğın-taktiki təlim keçirib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, elektrik deposunun ərazisində yerləşən vaqon parkında 27-ci yolda dayanan qatarın ikinci vaqonunda baş vermiş şərti yanğın hadisəsi yanğın-taktiki təlimin əsas mövzusu olub. Əvvəlcə şərti yanğın hadisəsinin baş verməsi barədə səsucaldıcı vasitəsilə məlumat verilib. Dərhal sonra metropoliten işçiləri ilkin yanğınsöndürmə vasitələri ilə yanğının söndürülməsinə başlayıblar. FHN-in 112 - qaynar telefon xəttinə yanğın barədə "məlumat ötürülüb".



Daha sonra Dövlət Yanğından Mühafizə Xidmətinin 1 saylı Xüsusi Təyinatlı Yanğından Mühafizə Hissəsinin yanğın avtomobilləri və canlı qüvvəsi şərti yanğın hadisəsinin baş verdiyi ünvana gələrək "yanğını söndürüblər". Təlim başa çatdıqdan sonra FHN-in əməkdaşları tərəfindən metropolitenin işçilərinə baş verə biləcək fövqəladə hallar zamanı döyüş hərəkətləri, metropoliten ərazisində yanğınların söndürülməsi və ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları izah edilib.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 02 iyun 2021-ci ildə 2021-2022-ci tədris ilinə ümumi orta təhsil səviyyəsi (5-9-cu siniflər) üçün kiçik ölçülü kağız dərsliklərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarına əsasən "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti qalib olmuşdur.

Qalib təşkilatla 24 iyun 2021-ci il tarixdə satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 31 may 2021-ci il tarixdə Dövlət Satınalmalarının Vahid İnternet Portalı vasitəsilə "Bakı Metropoliteni" QSC üçün təsərrüfat mallarının satın alınmasına dair açıq tender (Elektron) üsulu ilə müsabiqə keçirilmiş və "ALL SUPPLY" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 262939,40 (iki yüz altmış iki min doqquz yüz otuz doqquz manat 40 qəpik) manat ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ

**Assignment Title: Selection of national consultant -Seed Expertfor impact assessment of the project interventions in the seed sub-sector**

**Reference No. AZ-AACD-241298-CS-INDV/B2-SE**

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of four components:

(i) *Component A - Support for sanitary and phytosanitary services, which is structured into three subcomponents: support: (i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*

(ii) *Component B - Agri-food value chain development. The Component helps to develop value chains by partially financing demand-driven investment proposals. İt also supports activities for improving seed varieties and quality of seeds entering the market. The activities are structured into two sub-components: (i) İnvestment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.*

(iii) Component C -Financial services to agribusiness.

(iv) Component D-Project Management.

Project activities under sub-component B2 are coordinated with the Agrarian Service Agency, the PMU Monitoring and Evaluation specialist.

**The general objective**

